*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 139-145* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.2.139*

# Sədyar Vəzifə Eloğlunun ədəbi fəaliyyəti

**Qəndab Əliyeva**
Filologiya üzrə fəlsəfə dokoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
ORCID ID: 0000-0002-1521-666X
E-mail: gendab16@gmail.com

**Annotasiya.** Cənubi Azərbaycan milli-demokratik ədəbiyyatının sonuncu nəsil nümayəndələrindən biri olan və çağdaş ədəbiyyatın formalaşmasında mühüm rol oynayan Sədyar Vəzifə Eloğlunun ədəbi fəaliyyəti çoxşaxəlidir. O, istedadlı şair olmaqla yanaşı, səriştəli tədqiqatçı, mətnşünas, ədəbiyyatşünas və ictimai fəaliyyəti ilə seçilən ziyalıdır. Ömrünü Azərbaycan ədəbiyyatının inkişafına və bədii yaradıcılığa həsr edən S.V.Eloğlu, eyni zamanda milli ədəbi dəyərlərin təbliğatçısı və qoruyucusudur. Bu məqalədə S.V.Eloğlunun çoxşaxəli ədəbi fəaliyyəti tədqiq edilir.
**Açar sözlər:** Cənubi Azərbaycan milli-demokratik ədəbiyyatı, üçüncü nəsil ədiblər, Sədyar Vəzifə Eloğlu, şeir yaradıcılığı, mətnşünaslıq

**Məqalə tarixçəsi:** göndərilib – 24.04.2025; qəbul edilib – 08.05.2025

# Sadyar Vazifa Eloglu's literary activity

**Gandab Aliyeva**
Doctor of Philosophy in Philology, Associate Professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
ORCID ID: 0000-0002-1521-666X
E-mail: gendab16@gmail.com

**Abstract.** Sadyar Vazife Eloglu, one of the last representatives of the third generation of the Southern Azerbaijan national-democratic literature, has played a significant role in the formation of contemporary Southern Azerbaijani literature. His literary activity is multifaceted. He is not only a talented poet but also a competent researcher, textologist, literary scholar, and an active public intellectual. Devoting his life to the development of Azerbaijani literature and poetic creativity, S.V.Eloglu is also a devoted promoter and protector of national literary values. This article explores the various aspects of his literary career.
**Keywords:** Southern Azerbaijan national-democratic literature, third generation writers, Sadyar Vazife Eloglu, poetic creativity, textology

**Article history:** received – 24.04.2025; accepted − 08.05.2025

## Giriş / *Introduction*

Şeir və nəsr əsərlərində "Eloğlu" təxəllüs edən Sədyar Vəzifə İsmayıl oğlu 1959-ci il aprelin 2-də Qaradağ mahalının Xudafərin nahiyəsində yerləşən Katdalı Qulubəylisi qışlağında bir köçəri

ailədə anadan olubdur. 12 yaşınadək doğma elində böyümüş, ibtidai təhsilini Cəfərqulu Uşağı qışlağında başa çatdırıb, orta təhsilini Əhər və Təbriz şəhərlərində almışdır. 1978-ci ildən başlayaraq Təbriz ətrafındakı Aşağı Mayan kəndində dörd il müəllimlik etmiş, sonradan Tehrana köçərək bir şirkətdə çalışmışdır. Gənclik illərindən Azərbaycan ədəbiyyatına maraq göstərmiş, ilk qələm təcrübələrini həmin illərdə ana dilimizdə şeirlər yazmaqla gerçəkləşdirmişdir. Onun ilk şeiri 1980-ci ilin avqustunda Təbrizdə nəşr olunan "Dədə Qorqud" dərgisində dərc edilmişdir.

S.V.Eloğlunun şeirləri ilk addımlarından etibarən həm ədəbi mühitdə, həm də xalq arasında maraqla qarşılanmış, əsərləri İranda və hər iki taylı Azərbaycan mətbuatında müntəzəm olaraq dərc edilmişdir. Mərhum akademik Mirzə İbrahimov 1981-ci ildə "Azərbaycan" dərgisində "Cənub sovqatı (1947-1979)" adlı məqaləsində Eloğlunun ilk şeirlərini direniş ədəbiyyatı nümunəsi kimi dəyərləndirmişdir [14].

İndiyədək S.V.Eloğlunun iki cildlik şeir kitabı çap olunmuşdur. "Qoşmalar" adlı ilk kitabı 2002-ci ildə Tehranda "Nəxustin" nəşriyyatında əski əlifba ilə işıq üzü görmüşdür. Tanınmış ədəbiyyatşünas alim Dr. Məhəmmədrza Kərimi kitabın ön söz müəllifidir. Burada Eloğlunun qoşmaları, gəraylıları və sərbəst şeirləri yer alır, onlardan bəzilərinə musiqi bəstələnərək xalq arasında oxunmuşdur.

İkinci kitabı olan "Ölülər saqqız çeynəyir" 2009-cu ildə Kərəcdə "Pinar" nəşriyyatında çap olunmuş, ön sözünü İbad Məmizadə Ağdaşlı yazmışdır. İ.Məmizadə Eloğlunu "Milli duyğular şairi" adlandıraraq onu Azərbaycan realizm ənənələrinin daşıyıcısı və davamçısı kimi təqdim edir, bu əsəri yüksək qiymətləndirir.

Bundan başqa, Eloğlunun şairlər haqqında yazdığı ədəbi baxışları və klassik əlyazmalar haqqında "Axtarışlar-tapıntılar" başlıqlı elmi-ədəbi məqalələri İranda yayımlanan türkdilli dərgi və qazetlərdə dərc olunubdur. Şeir və məqalələri daha çox "Dədə Qurqud", "Varlıq", "Füruği-Azadi", "Məhdi-Azadi", "Fəcri-Azərbaycan", "Əxtər", "Yol", "Azəri", "Ümidi-Zəncan", "Bahari-Zəncan", "Ərk", "Günəş", "Dilmac", "Peyki-Azər", "Xudafərin", "Bayram", "Araz", "Aftabi-Azərbaycan" və başqa dərgilərdə dərc edilmişdir.

S.V.Eloğlunun romanları da var: 1946-ci ildə Cənubi Azərbaycanda yaranan Milli Hökumətin mübarizə yollarını əks etdirən "Telli Məmi" adlı romanı 2002-ci ilin may ayından başlayaraq Ərdəbil şəhərində nəşr olunan "Araz" həftəliyində ardıcıl saylarda çap edilmişdir. "Xuduş" romanı isə Behzad Behzadinin Tehranda nəşr etdirdiyi "Azəri" dərgisində silsilə şəklində dərc olunubdur.

## Əsas hissə / *Main part*

Sədyar Vəzifə Eloğlunun çoxşaxəli ədəbi fəaliyyəti aşağıdakı istiqamətlər üzrə sistemləşdirilə bilər:

**1. Ədəbi dərnəklərdə fəaliyyəti**

S.V.Eloğlu 1980-ci ildən başlayaraq Təbrizdə fəaliyyət göstərən "Azərbaycan şairlər və yazıçılar cəmiyyəti"nin fəal və rəsmi üzvlərindən olmuşdur. Bu dərnəkdə Yəhya Şeyda, Hilal Nasiri, Abbas Bariz, Abbas Sabiri və digər qələm sahibləri ilə birgə fəaliyyət göstərmiş, iclaslarda müntəzəm iştirak etmişdir. Cəmiyyət bağlandıqdan sonra 1984-cü ildə Tehrana köçərək, burada Muradəli Qüreyşi Qaflantı, Bürcəli Qüreyşi Türkoğlu, Həsən Riyazi (Həsən İldırım), Səid Bəzli (Aydın Təbrizli), Məhəmməd Qasimi (Aqşin Ağkəmərli), Cəbrail Seyfi Heris, Hüseyn Seyfi Heris (Ağyarlı), Cəmşid Şeybani Avçı və Qadir Cəfəri Quruçaylı ilə birlikdə "Arzu karvanı" adlı ədəbi dərnəyin qurucularından olmuşdur. Dərnəyin iclasları əsasən evlərdə keçirilmiş və S.V.Eloğlu dərnəyin idarəçilərindən biri kimi fəaliyyət göstərmişdir.

1994-cü ildən başlayaraq isə Müzəffər Dirəfşi, Səyid Müniri, Behzad Behzadi, Əliqulu Katibi, Haşım Tərlan Hüseyn Şəhrək və digər tanınmış simaların iştirakı ilə yaradılan "Mirzə Ələkbər Sabir" adına ədəbi dərnəyin daimi üzvü olmuş, tədbirlərində fəal iştirak etmişdir. 1998-ci ildə

Tehran Bələdiyyəsinin mədəniyyət saraylarından olan Hünəri Hövzənin mərkəzi binasında həftədə bir gün keçirilən “Türkcə şeir tənqidi” axşamlarının təşkilatçılarından biri olmuşdur. Bu ədəbi mühitdə İbad Məmizadə Ağdaşlı, Bağır Reşadəti, Hüseyn Şəhrək, Mirzə Rəsul İsmayılzadə və Mehdi Əbdüllahi ilə birgə fəaliyyət göstərmiş, beş il davam edən bu layihə Tehran ədəbi mühitində türkdilli gənc nəslin yetişdirilməsində mühüm rol oynamışdır.

**2. Mətbuatda fəaliyyəti**

Sədyar Vəzifə Eloğlunun mətbu fəaliyyətləri uzun illəri əhatə edir və çoxşaxəlidir. Onun bu sahədə fəaliyyəti aşağıdakı kimi ümumiləşdirilə bilər:

- Bülleten nəşriyyəsi – 1986-cı ildə Dr. Hüseyn Məhəmmədzadə Sədiqin rəhbərliyi ilə təsis edilən “Azərbaycan (türk) dili dərnəyi”nin qurucularından olmuş, dərnəyin bülletenində şeirləri nəşr olunmuşdur.
- “Ərk” qəzeti – 1996-2002-ci illərdə Təbrizdə nəşr olunan bu həftəlik qəzetdə “İllərin qanadında” və “Ədəbi gənclik” rubrikalarında Cənubi Azərbaycan şairlərinin yaradıcılığına dair silsilə məqalələrlə çıxış etmişdir.
- “Peyki-Azər” dərgisi – 2000-2002-ci illərdə Zəncanda çap olunan aylıq dərgidə “Əsrimiz – şeirimiz” rubrikasında çağdaş şairlərin kitablarına dair ədəbi baxışlarını dərc etdirmişdir.
- “El dili və ədəbiyyatı” nəşriyyəsi – 2002-2004-cü illərdə “Atalar sözü” bölməsinin məsulu olmuş, folklor və ədəbiyyat sahəsində fəal iştirak etmişdir.
- “Xudafərin” dərgisi – 2004-2006-cı illərdə Tehranda nəşr olunan bu türkcə-farsca ədəbi-elmi dərginin baş yazarı və icraçı redaktoru kimi çalışmış, 24 sayın ardıcıl çapına rəhbərlik etmişdir.
- “Azəri” dərgisi – 2004-2009-cu illərdə bu beynəlxalq elmi-ədəbi dərgidə “Atalar sözü və zərb məsəllər” rubrikasının məsulu olmuşdur.
- “Dilmac” dərgisi – 2008-ci ildə aylıq elmi-mədəni-siyasi dərginin icraçı redaktoru olmuşdur.
- “El ədəbiyyatı” dərgisi – 2009-cu ildən etibarən Zəncanda çap olunan folklorik dərginin baş redaktoru kimi fəaliyyət göstərmiş, bu dərgi 2011-ci ilə qədər “Bayram” dərgisinin əlavəsi kimi nəşr olunmuşdur.

**3. Əlyazmalar üzərində tədqiqatları**

S.V.Eloğlunun yaradıcılığında diqqətəlayiq istiqamətlərdən biri də klassik Azərbaycan ədəbiyyatına və əlyazmalara olan marağıdır. O, xüsusilə XV-XVII əsrlərə aid klassik poeziya örnəklərini araşdıraraq, bir sıra əlyazmaları üzə çıxarmış, onların tədqiqi və təbliği ilə məşğul olmuşdur.

Onun bu sahədəki fəaliyyəti “Axtarışlar – tapıntılar” başlıqlı məqalələr silsiləsində öz əksini tapmışdır. Həmin yazılarında müxtəlif bölgələrdə – Təbriz, Ərdəbil, Urmiya, Zəncan və Marağa şəhərlərində rast gəlinən qədim əlyazmalar haqqında elmi və ədəbi dəyərləndirmələr aparılmışdır. O, əlyazmaların yalnız mətn tənqidi baxımından deyil, həm də onların fonetik, leksik və qrafik xüsusiyyətləri baxımından təhlilinə önəm vermişdir.

Araşdırmaçı-alim kimi o, yalnız mətni təqdim etməklə kifayətlənmir, həm də həmin müəlliflərin dövrü, ədəbi mühiti və fəlsəfi baxışları barədə geniş analiz aparır. Bu yanaşma onun tədqiqatlarının həm ədəbi, həm də mədəni-tarixi baxımdan dəyərli olmasını təmin edir.

Əlyazmalar üzərindəki araşdırmaları aşağıdakı əsas nümunələri əhatə edir:

1. Divani-Nizami” [Gəncəvi] (“Xədiviyyə” əlyazması). Türkcə əlyazmalar üzərində ilk tədqiqat işi məşhur “Xədiviyyə” nüsxəsi adlanan “Divani-Nizami” olubdur. 2003-cü ildə ilk dəfə çap etdirdiyi “Divani-Nizami” [Gəncəvi] illər sürəsində tanınmış ədəbiyyatşünas və nizamişünas alimlərin tədqiqat mövzularından olmuşdur [1]. Həmin “Xədiviyyə” əlyazması ilə bağlı müsbət fikirlərini kitablarında və elmi nəşriyyatlarda yayımlayan alimlərimizdən prof.Dr. Bərat Zəncani, prof.Dr. Nizami Xuduyev, prof.Dr. Əlyar Səfərli, prof.Dr. Sənan İbrahimov, Dr. Hüseyn Məhəmmədzadə Sədiq (Düzgün), prof.Dr. Məhəmməd Həlmi Yarqın (Kabul Universitetinin ədəbiyyat-

şünası), prof.Dr. Nüşabə Araslı, Dr. Hacı Səbuhi, Dr. Hüseyn Şərqi, Dərəcək Soytürk, Dr. Məhəmmədrza Kərimi, Dr. İsmail Hadinin adlarını çəkmək olar. Bu nüsxə Tehranda və Bakıda çap olunub [15].

2. "Divani-Vali". İran Məclis Kitabxanasından tapdığı türkcə "Divani-Vali" Səfəvilər dövrünə aid olan bir əsərdir. Kataloqlarda məzmunu farsca qeyd olunan "Divani-Vali"inin içindən 39 türkcə qəzəl tapmış və şairin öz etirafına görə onu "Kirmanlı Vali" adı ilə mətbuatda yayımlamışdır [7, s.13].

3. "Divani-Şükri". Üçüncü divan isə yenə Səfəvilər dövrünə aid "Təbrizli Şükri"nin divanıdır. Kataloqlarda məzmunu farsca qeyd olunan "Divani-Şükri"nin içindən 21 türkcə qəzəl və qəsidə tapıb şairin aydın yazdığına görə Təbrizli olduğunu nəzərdə alıb "Təbrizli Şükri"nin divanı adı ilə yerli mətbuatda dərc etdirmişdir [10, s.25] .

4. "Bəxtiyarnamə". Səfəvilər dönəminə aid olan "Bəxtiyarnamə" adlı bir əlyazmanı üzə çıxarıb, onun yeni tapılan bölümünü mətbuatda ilk dəfə olaraq yayımlamışdır. Qeyd etmək lazımdır ki, mərhum Qulam Məmmədlinin 1947-ci ildə Bakıda yarımçıq çap etdirdiyi "Bəxtiyarnamə"də olmayan bölümü bu nüsxədən tapıb onu təkmilləşdirmişdir [8, s.13].

5. Bir qəsidə. Məhəmməd Fizulinin indiyədək üzə çıxmayan bir qəsidəsini bir əlyazmadan üzə çıxarıb Tehranda nəşr olan məşhur "Varlıq" jurnalında ilk dəfə olaraq çap etdirmişdir [6, s.54].

6. "Oğuznamə" və "Səlcuqnamə". Axtarışların davamında Sultan Məhəmməd Fatehin kitabxanasının rəisi, eləcə də "Fateh"in böyük oğlu ikinci Sultan Bayzidin müəllimi olan məşhur alim Lütfinin yazdığı farsca bir məsnəvini ilk dəfə olaraq İranda araşdırıb yayımlamışdır. Məsnəvinin üçdə bir hissəsi "Oğuznamə" və üçdə iki hissəsi isə Səlcuq sülaləsinin müxtəlif qollarından bəhs edən "Səlcuqnamə"dir. Müəllif bu önəmli məsnəvidə yazır: "Oğuz xanın böyük oğlu Günxan Novruz bayramında başına tac qoydu və taxta keçdi". O, həmin məsnəvidə Oğuzların otuz hərfdən olan ilk əlifbalarının yaranmasını göstərir və verdiyi məlumatların qaynağı olan "Qatmər" adlı bir salnamədən söz açaraq yazır ki, o möhtəşəm salnamənin müəllifi Oğuz xanın və oğlu Günxanın müşaviri və vəziri İrqildir (İrqil Yenikənti). Bu əlyazma da S.V.Eloğlu tərəfindən "Xudafərin" [9, s.10] dərgisində ardıcıl olaraq üç sayda nəşr etdirilmişdir.

7. "Divani-Şeyx Nizami". Ədəbi-elmi camiədə özünü təsbit etməkdə olan "Divani-Nizami" [Gəncəvi] (Xədiviyyə) əlyazmasının bir başqa variantını Qum şəhərində Ayətullah Gulpayqani kitabxanasından tapıb üzə çıxardığı "Divani-Şeyx Nizami" adlı türkcə əsəri üzərində son tədqiqini əlyazmanın mətni ilə bərabər mətbuatda yayımlamış və kitab olaraq çapa hazırlamışdır [13, s.3].

8. Məhəmməd Füzulidən yeni tapılan bir farsca-türkcə müləmmə qəzəl. Beş beytlik olan bu qəzəli İran Məclis kitabxanasının əlyazmalar fondunda saxlanılan "Divan Vali"nin 134-cü varağının qırağında kiminsə əlilə yazılmış qalır. Onu oxuyub "Dilmac" dərgisində nəşr etdirib [5, s.118].

9. "Qəzəliyyati-türki". İran Məclis kitabxanasında saxlanılır. 67 Türk şairinin əsərləridir. Araşdırıb haqqında bir məqalə yazmış və ədəbi ictimaiyyətə tanıtdırmışdır [2, s.79].

10. "Luğəti-Danestan" kitabı. Əlyazma luğət kitabıdır. İran Məclis kitabxanasında 869 şifrə ilə saxlanılır. Önəmi ondadır ki, Azərbaycan türkcəsilə yazılan bir farsca-türkcə sözlükdür. Əlyazma 988 hicri-qəməri tarixində üzünü köçürməklə çoxaldılıb yaymlanmış və müəllifinin adı da "Xətib Rüstəm Movləvi"dir [3, s.92].

11. Cami Ərdəbilidən türkcə bir qəzəl. İran məclis kitabxanasında 13794 nömrə ilə saxlanılan əlyazmada "Cami" təxəllüslü şair haqqında "Dilmac" məcəlləsində məqalə yazmışdır [4, s.92].

12. Fərhəngi-Mirzə İbrahimov Səfəvilər dövrünə aid olan türkcə-farsca bir sözlükdür. Müəllif bu dəyərli sözlükdə olan türk sözlərinin bəzilərinə izahlar yazdıqda türkcəmizdə olan kəlmələri altıncı hicri-qəməri əsrində yaşayan şairlərin fars dilində yazdıqları şeirlərindən sitat gətirərək o illərdə fars ədəbiyyatında işlək olan türk mənşəli sözləri göstərir. O, Xaqani, Nizami Gəncəvi, Səlman Savəci, Xacui-Kirmani, Ənvəri, Zahirəddin Faryabi, Kəmaləddin İsfahani, Müciriddin Beyləqani kimi klassiklərin beytlərində olan türk mənşəli lüğətləri farsca izah edibdir [12, s.92].

**4. Çap olunmuş kitabları (Azərbaycan türkcəsində)**

Sədyar Vəzifə Eloğlunun Azərbaycan türkcəsində nəşr etdirdiyi kitablar həm elmi, həm də bədii dəyəri ilə seçilir. Onun kitabları sırasında antologiyalar, poeziya məcmuələri, əlyazma əsərlərin transkripsiyası və şərhləri yer almaqdadır.

1. S.V.Eloğlu. İllərin qanadında (Cənubi Azərbaycan şeir antologiyası). Tehran: Əndişeyi-Nov, 2001.
2. S.V.Eloğlu. Qoşmalar (Şeirlər məcmuəsi). Tehran: Nəxostin, 2002.
3. S.V.Eloğlu. Divani-Nizami Gəncəvi (yeni tapılan "Xədiviyyə" nüsxəsi, türkcə). Tehran: Əndişeyi-Nov, 2003.
4. Nizami Gəncəvi'nin türkcə divanı ("Xədiviyyə" nüsxəsi əsasında). Bakı: Nurlar, 2006.
5. S.V.Eloğlu. Ölülər saqqız çeynəyir (Şeirlər). Kərəc: Pinar, 2011.
6. Nizami Gəncəvi və Qaramanlı Nizami'nin türkcə divanı ("Xədiviyyə" nüsxəs əsasında). Bakı: Mütərcim, 2019.
7. S.V.Eloğlu. Divani-Şeyx Nizami (Ayətullah Gulpayqani kitabxanasında saxlanan türkcə nüsxə). Nəşr: Xudafərin jurnalı, 2020, say 20 (özəl buraxılış); Nameyi-Sədiq beynəlxalq jurnalı, 2024, say 20 (özəl buraxılış) [11, s.92].
8. Nizami Gəncəvi. Divan (Azərbaycan türkcəsində). Misirin Xədiviyyə kitabxanasında tapılmış nüsxə əsasında. Tərtib edən və ön sözün müəllifi: P.F. Kazimi. Bakı: Mütərcim, 2019 [14, s.92].
9. S.V. Eloğlu. Bəxtiyarnamə. Təbrizli Fədayinin 15-ci əsrdə yazdığı nadir türkcə məsnəvinin yeni nəşri. Təbriz: Azərturan-Nəbati, 2024.
10. S.V.Eloğlu. Arxada qalan illər. Tərtib edən və ön sözün müəllifi: Q.H. Əliyeva. Bakı: Səda, 2024.
11. S.V.Eloğlu. Oğuznamə (Tərcümə və tədqiq). Bakı: Füyuzat, 2024.
12. S.V.Eloğlu. Divani-Şeyx Nizami (Türkcə-farsca, Ayətullah Gulpayqani kitabxanasının nüsxəsi əsasında). Tərtib edən: P.F. Kazimi. Bakı: Mütərcim, 2025.

**2. Kiril və latın əlifbasından köçürmə əsərləri**

1. Mövlud Süleymanlı. Söz içində söz (Azərbaycan dilində arxaik yerli sözlər lüğəti). Köçürən: S.V.Eloğlu. Tehran: Əndişeyi-Nov, 1381/2002.
2. İsmayıl Vəliyev. Bilqamış dastanı (İngilis dilindən tərcümə; köçürən: S.V.Eloğlu). – "Azəri" jurnalında 2004–2007-ci illərdə silsilə yazı kimi çap olunub.
3. Səlahəddin Xəlilov. Şərq və Qərb. Köçürən: S.V. Eloğlu. Tehran, 1384/2005.

**4. Müqəddimə və ön söz yazdığı kitablar**

1. Məhəmmədhəsən Yusfi. El sözləri. Tehran: Əndişeyi-Nov, 1377/1998.
2. Pərvyəz Yekani Zare. Azərbaycan şifahi el ədəbiyyatına bir baxış. Tehran: Əndişeyi-Nov, 1377/1998.
3. Bəxtiyar Vahabzadə. Payız düşüncələri. Köçürən: Əkbər Əlyari. Tehran: Əndişeyi-Nov, 1378/1999.
4. Məhəmmədnəqi Nasrülfüqəra Azərpuya. Hafiz qəzəlləri (türkcə tərcümə). Təbriz: Ayiin, 1380/2001.
5. Mirzə Ələkbər Sabir. Hophopnamə. Köçürən: Həmid Araş Azad. Təbriz, 1381/2002.
6. Vuqar Nemət. Səni qayalara çağıracağam (Şeirlər). Tehran: Əndişeyi-Nov, 1381/2002.
7. Aşıq Kamandar Əfəndiyev. Borçalı laylası. Tehran, 1382/2003.
8. Qulamhüseyn Saidi. Bəyəl əzalıları. Tərcümə: Nigar Xiyavi. Təbriz: Əxtər, 1382/2003.
9. Hüseyn Seyfi Heris (Ağyarlı). Günəşə sarı (Şeirlər). Tehran: Əndişeyi-Nov, 1381/2002.
10. Bəhruz İmani. Gözlərini aç. Tehran: Zufa, 1382/2003.
11. Məhərrəm Fərzanə. İstək zirvəsi (Şeirlər). Təbriz: Əxtər, 1381/2002.
12. Cəmşid Şeybani. Bayatı bulağı. Tehran: Əndişeyi-Nov, 1378/1999.

13. Mehdixan Vəkilov. Cavanşir (Roman). Köçürən: Hüseyn Şərqi Soytürk. Təbriz: Əxtər, 1383/2004.
14. Cavad Dərbəndi. Aşıqlar dünyası. Təbriz: Füruği-Azadi, 1383/2004.
15. Aşıq Marağeyi. Qəzəllər (Tərtib: Cavad Dərbəndi). Tehran: Nəxostin, 1382/2003.
16. Ramiz Məmmədzadə. Həmişə sən gələsən (Şeirlər). Köçürən: Cavad Dərbəndi. Tehran: Nəxostin, 1382/2003.
17. Budaq Budaqov. Köçürən: Əli Cavadpur. Tehran: Nəxostin, 1381/2002.
18. Əliqulu Katibi Ağquş. Təzə bayatılar (Şeirlər). Tehran: Əndişeyi-Nov, 1378/1999.
19. Abdullah Kazımi Qarabulaq. Ata-babalar sözü. Tehran: Əndişeyi-Nov, 1380/2001.
20. İldırım Behcət. Arazımı səsləyirəm (Şeirlər). Tehran: S.V. Eloğlu, 1385/2006.
21. Abbas Dehqani Müştəqin Çoban. Bayatı boxçası. Tehran: Əndişeyi-Nov, 1396/2017.
22. Həmdullah Mədədi Yetim. Kəndimizin bulağı (Şeirlər). Qum: Zəmzəm, 1395/2016.
23. İsmayıl Səlimi. Ana Süngün (Şeirlər). Tehran: Əndişeyi-Nov, 1382/2003.
24. Cavad Dərbəndi. Lələnin yaz evində (Hekayələr). Təbriz: Füruği-Azadi, 1386/2007.
25. Qənbər Seyfi. Azərbaycan nağılları (Qaradağ rəvayətləri). Tehran: Avaz, 1397/2018.

## Nəticə / *Conclusion*

Sədyar Vəzifə Eloğlu Cənubi Azərbaycanda milli demokratik ədəbiyyatın formalaşmasında və inkişafında mühüm rol oynamış ziyalılardandır. Onun şair, tədqiqatçı və publisist kimi fəaliyyəti yalnız ədəbi yaradıcılıqla məhdudlaşmır, həm də milli şüurun oyanışı, ana dilinin qorunması və mədəni irsin gələcək nəsillərə çatdırılması istiqamətində aparılan mübarizənin bir parçası kimi çıxış edir.

O, ədəbi dərnəklərdə iştirakı, dərgi və qəzetlərdəki məhsuldar fəaliyyəti ilə yüzlərlə gənc qələm sahibinə örnək olmuş, onların yetişməsində mühüm rol oynamışdır. Eloğlunun klassik əlyazmalar üzərində apardığı tədqiqatlar Cənubi Azərbaycan ədəbi mühitində unudulmaqda olan bir çox ədibin yenidən gündəmə gətirilməsinə və ədəbiyyat tarixinin daha dolğun şəkildə yazılmasına imkan yaratmışdır.

Onun fəaliyyəti göstərir ki, milli ədəbiyyat yalnız yazmaqla deyil, həm də oxumaq, araşdırmaq və yaymaqla yaşadılır. S.V.Eloğlu bu funksiyaların hər birini uğurla yerinə yetirir. O, sözün əsl mənasında milli kimliyin daşıyıcısı və qoruyucusudur. Mənsub olduğu xalqın rəğbətini və təqdirini ən ali mükafat sayan S.V.Eloğlu, səmərəli elmi-ədəbi, ədəbi-bədii və ictimai fəaliyyəti ilə Cənubi Azərbaycanın milli-demokratik ədəbiyyatının üçüncü nəsil nümayəndələri sırasında öz layiqli yerini çoxdan tutmuşdur. Hazırda Təbriz şəhərində yaşayan və yaradıcılığını davam etdirən alim və ədib vahid ruhlu Azərbaycan ədəbiyyatının birliyinə həm mənəvi, həm də əməli şəkildə töhfə verməyə çalışır. Onun ədəbi fəaliyyəti yalnız Güney Azərbaycanda deyil, bütövlükdə Türk dünyasında milli kimlik, azadlıq idealları və mədəni özünüdərk baxımından əhəmiyyətli bir istiqamət kimi dəyərləndirilə bilər.

## Ədəbiyyat / *References*


1. Eloğlu S. V. Divani-Nizami Gəncəvi (Azərbaycan türkcəsində, orijinal nəşr). Tehran, Əndişeyi-nov. 1382.
2. Eloğlu S. V. Tehran, Dilmac, 2007, №32.
3. Eloğlu S. V. Tehran, Dilmac, 2007, №33.
4. Eloğlu S. V. Tehran, Dilmac, 2007, №34.
5. Eloğlu S. V. Tehran, Dilmac. 2007, №31.
6. Eloğlu S. V. Tehran, Varlıq, 2004, №132, Xudafərin. 2004, №1.
7. Eloğlu S. V. Tehran, Xudafərin, 2004, №2.

8. Eloğlu S. V. Tehran, Xudafərin, 2006, №22.
9. Eloğlu S. V. Tehran, Xudafərin, 2009, №54, 2020, №89.
10. Eloğlu S. V. Tehran, Xudafərin, 2019, №180.
11. Eloğlu S. V. Tehran, Xudafərin, 2020, №201; Tehran, Nameyi-Sədiq, 2024, №20.
12. Eloğlu S. V. Tehran, Xudafərin, 2021, №189.
13. Eloğlu S. V. Tehran, Xudafərin, 2021, №199, 2021, №201.
14. İbrahimov M.. Cənub sovqatı (1947–1979). Bakı, 1981, №5.
15. Kazımi P. F. Gəncəvi Nizami. Divan (Azərbaycan türkcəsində, Misirin Xədiviyyə Kitabxanasında tapılmış nüsxənin Eloğlu tərəfindən tərtib edilmiş nəşrinə əsasən çap edilib). Bakı, Mütərcim, 2019.

## Литературная деятельность Садяра Вазифе Элоглу

**Гандаб Алиева**
Доктор философии по филологии, доцент
Институт литературы имени Низами Гянджеви НАНА
ORCID ID: 0000-0002-1521-666X
E-mail: gendab16@gmail.com

**Резюме.** Садяр Вазифе Элоглу – один из последних представителей третьего поколения национально-демократической литературы Южного Азербайджана, сыграл значительную роль в формировании современной южноазербайджанской литературы. Его литературная деятельность отличается много-сторонностью. Он не только талантливый поэт, но и компетентный исследователь, текстолог, литературовед и активный общественный деятель. Посвятив свою жизнь развитию азербайджанской литературы и поэтического творчества, С.В.Элоглу также является преданным пропагандистом и хранителем национальных литературных ценностей. В статье исследуются различные аспекты его литературной деятельности.
**Ключевые слова*:*** национально-демократическая литература Южного Азербайджана, третье поколение писателей, Садяр Вазифе Элоглу, поэтическое творчество, текстология